## SABAH GEC OLAR...

Bu get-gəllər, danışıqlar bəsdi, bəs!
Quru sözlə torpaq geri verilməz.
Quru budaq yanar, amma göyərməz,
Kor düyünlər qılınclarla açılar
Qızmış oxlar hədəfinə sancılar.

Qızmış oxa dönəmməsək, nə fayda?..
Torpaq üçün öləmməsək, nə fayda?
Döyüş əmri verər Ali Komandan,
İlləri saymaqdan dillər qabardı,
Qarabağçün gözüm kökü saraldı.

Bir əmrlə əsgər dolsun səngərə,
Meydanı tapşırın igid ərlərə.
Cəhənnəmi göstərsinlər düşmənə -
Şəhidlərin ruhuna borcumuz var,
Sənin, mənim, bizlərin suçumuz var.

Zorakı dünyada ədalət baha,
Hərdən başa gəlir can bahasına,
Toplar nöqtə qoyur söz davasına,
Bu nöqtəni qoya bilsək əgər biz,
Yazılanı pozdurarıq şübhəsiz.

Onda dünya bizimlə hesablaşar,
Bizi təbrik etmək üçün yarışar.
İşğalçı da məcbur olub barışar
Buna haqqımız var, imkanımız var
Bu gün başlamasaq, sabah gec olar.

## XƏLİL RZA BU GÜN DƏ SƏNGƏRDƏDİR

(Xalq şairi Xəlil Rza Ulutürkün
əziz xatirəsinə)

*Dərin dərələrdən sel kimi keçən,*
*Saxta zirvələrdən yel kimi keçən,*
*Qasırğa tək gəlib, şimşək tək köçən,*
*Yenə döyüşlərdə, cəbhələrdədir,*
*Xəlil Rza bu gün də səngərdədir*

*Bozqurdu sevirdi, qurd balasıydı,*
*Keçilməz sədd idi, türk qalasıydı,*
*Dönüklərin qorxulu röyasıydı,*
*Amalı uğrunda o, məhbəsdədir.*
*Xəlil Rza bu gün də səngərdədir.*

*Firəngizi arxa oldu o dağa,*
*Qoşa çinar kök atıbdı torpağa.*
*O ölməyib, çevrilibdi bayrağa,*
*Başımız üstündə, yüksəklərdədir*
*Xəlil Rza bu gün də səngərdədir.*

*Tək oğlunu qurban verdi vətənə,*
*Özü də qoşuldu qurban gedənə...*
*Qurban olum bu toxumu səpənə,*
*Səpib könüllərdə, ürəklərdədir.*
*Xəlil Rza bu gün də səngərdədir,*
*Xəlil Rza bu gün də səngərdədir.*

**Zeynalabdin NOVRUZOĞLU**
Naxçıvan MR

28